Mürsəlov Oruc Qinyaz oğlu,
Bakı Dövlət Universitetinin Beynəlxalq ümumi hüquq kafedrasının doktorantı
Ünvan: Bakı şəhəri, Akademik Zahid Xəlilov küçəsi, 33
E-mail: orucmurselov1@gmail.com

UOT 341.4
DOI: https://doi.org/10.30546/2218-9130.009.2026.123

KORRUPSİYA: ANLAYIŞI, MAHİYYƏTİ VƏ NÖVLƏRİ

Açar sözlər: *korrupsiya cinayəti, qlobal kriminallaşma, vəzifəli şəxs, qanunsuz varlanma, nepo-tizm korrupsiya əleyhinə BMT Konvensiyası, korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında Avropa Şurasının Konvensiyası, transmilli mütəşəkkil cinayətkarlığa qarşı BMT Konvensiyasi, beynəl-xalq hüquq, milli cinayət qanunvericiliyi.*

Ключевые слова: *коррупционные преступления, глобальная криминализация, должностные лица, незаконное обогащение, непотизм, Конвенция ООН против коррупции, Конвенция Совета Европы об уголовной ответственности за коррупцию, Конвенция ООН против транснациональной организованной преступности, международное право, национальное уголовное законодательство.*

Keywords: *corruption crime, global criminalization, official, illicit enrichment, nepotism UN Convention against Corruption, Council of Europe Convention on Criminal Liability for Corruption, UN Convention against Transnational Organized Crime, international law, national criminal legislation.*

Giriş

Korrupsiya müasir dövrdə kriminal qloballaşmanın təhlükəli təzahürlərindən biri olmaqla, özünün ictimai təhlükəlilik dərəcəsinə, vurduğu zərərin həcminə və xarakterinə görə təkcə dövlətlərin siyasi, sosial-iqtisadi təhlükəsizliyinə deyil, həmçinin ayrılıqda hər bir fərdin maraqlarına, həyat səviyyəsinə, qanunla qorunan digər dəyərlərinə, o cümlədən dövlətlərarası əməkdaşlığa təhlükə yaradan, ona qəsd edən sosial-hüquqi hadisədir. Korrupsiya etnik mənşəyə, irqi inanca və coğrafi yerə görə heç bir əhəmiyyət kəsb etməyən universal bir fenomendir. Tarixi sivilizasiyaların başlanğıcından tutmuş müasir demokratiyanın indiki dövrünə qədər korrupsiya ilə mübarizə cəmiyyətin və dövlətin prioritet öhdəliklərindən biri olmuş və hal-hazırda da onunla daha təkmil və səmərəli mübarizə üsullarının axtarışı davam edir.

Korrupsiya prinsip etibarı ilə çoxşaxəli və mürəkkəb tərkibə malik sosial-hüquqi hadisə olduğundan, onun anlayışının məna yükü, iqtisadi, sosial, siyasi, hüquqi və etik mahiyyəti elm nümayəndələri tərəfindən müxtəlif perspektivlərdən və istiqamətlərdən şərh edilir. Ona görə ki, bu anlayış çoxsahəli və fənlərarası müzakirə mövzusu olduğu üçün, akademik dairələr, hökumətlər, özəl qurumlar və digər qeyri-hökumət təşkilatları ona fərqli prizmalardan yanaşırlar. Şübhəsiz ki, hər bir yanaşmanın səbəbləri və şərtləri korrupsiya ilə mübarizənin hüquqi əsaslarının formalaşmasına, onun anlayışının təkmilləşdirilməsinə bu və ya digər müstəvidə təsir göstərir. Onu nəzərə almaq lazımdır ki, müasir dövrdə elmi-texniki tərəqqinin sürətli inkişafı korrupsiyanın yeni təzahür formalarının meydana gəlməsinə səbəb olur, odur

ki, korrupsiya fenomeninin anlayışına və onun növlərinə dinamik inkişaf kontekstindən yanaşma daha məqbul hesab edilməlidir.

Məqalənin aktuallığı – korrupsiyanın anlayışı və onun mahiyyəti ilə bilavasitə əlaqəyə malik aşağıda qeyd olunan məsələlərin kompleks araşdırılmasında və təhlil olunmasında ifadə olunur: *birincisi*, korrupsiya cəmiyyətin iqtisadi və siyasi əsaslarını məhv edən, dövlət qurumlarına etimadı sarsıdan, cəmiyyətdə hüquqa, qanunçuluğa, haqq və ədalətə inamsızlıq aşılayan, insanlar arasında sosial bərabər-sizliyə səbəb olan və bütün bu sadalananların fonunda onunla mübarizənin səmərəliliyi nöqteyi-nəzərindən milli və beynəlxalq hüquq sistemləri arasında qarşılıqlı əlaqəni tələb edən qlobal bir problem kimi təqdim edilir; *ikincisi,* məqalədə korrupsiya problemini tədqiq edən və araşdıran tədqiqatçıların konseptual yanaşmalarına şərik çıxaraq, korrupsiya təkcə hüquqi və kriminoloji kateqoriya kimi deyil, həm də iqtisadi, siyasi, sosial, ictimai və beynəlxalq əhəmiyyətə malik sintetik bir anlayış kimi xarakterizə edilir və korrupsiyanın anlayışı beynəlxalq hüquq və dövlətdaxili hüquq nəzəriyyəsində hakim olan geniş və dar mənada yanaşma aspektindən araşdırılır və təhlil edilir; *üçüncüsü,* korrupsiya və onun təzahür formalarına qarşı mübarizənin səmərəliliyi iki hüquq sisteminin – beynəlxalq hüquq və dövlət-daxili hüququn qarşılıqlı münasibətləri və qarşılıqlı fəaliyyəti aspektindən təhlil edilir və əsaslandırılır və qeyd olunur ki, korrupsiya təkcə milli dəyərlərə təhlükə yaratmır, o, çoxdan bəri ayrı-ayrı dövlətlərin sərhədlərini aşaraq transsərhəd təbiəti əldə etmiş və korrupsiyaya uğramış məmurlar cinayətkar gəlirlərinin yuyulması üçün ofşor zonalardan, beynəlxalq maliyyə sistemlərindən və transmilli şirkətlərdən istifadə edirlər; *dördüncüsü,* korrupsiyanın anlayışı doktrinal nöqteyi-nəzərdən təhlil edilir və vurğulanır ki, bu cinayət beynəlxalq xarakterli cinayətin və yaxud transmilli cinayətin müstəqil növlərindən biri olmaqla, yalnız rüşvət və hakimiyyətdən sui-istifadə ilə məhdudlaşmır, o, həmçinin korrupsiyalı lobbi-çilik, korrupsiyalı favoritizm, korrupsiyalı proteksionizm, nepotizm, dövlət resurslarının və vəsaitlərinin qanunsuz bölüşdürülməsi və yenidən bölüşdürülməsi, qanunsuz varlanma, korrupsiyada vasitəçilik və bu kimi qeyri-qanuni əməlləri də əhatə etdiyindən, indinin özünə kimi beynəlxalq səviyyədə bu cinayətin universal anlayışının müəyyənliyinə nail olunmamışdır, hətta bu cinayətin BMT-nin korrupsiya əleyhinə Konvensiyasında, Avropa Şurasının korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında Konvensiyasında, BMT-nin transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasında (8-ci m.) tərifi verilmir.

Məqalənin məqsədi – çoxaspektli mürəkkəb sosial-hüquqi hadisə olan korrupsiyanın anlayışına, mahiyyətinə, yaranma səbəblərinə dair doktrinal baxışları kompleks şəkildə araşdırmaq və təhlil etmək, korrupsiyanın müxtəlif əsaslara görə təsnifatını (növlərini) verməkdən ibarətdir. Bu məqsədlə məqalədə tarixi-hüquqi, müqayisəli-hüquqi, ümumelmi və sistemli təhlil metodlarından istifadə olunur. Əsas yanaşma isə ondan ibarətdir ki, korrupsiyanın anlayışına, mahiyyətinə və onun təzahür formalarına baxış dinamik yanaşma prinsipinə əsaslanmalı və bu fenomenin ictimai təhlükəliliyi və vurduğu zərərin həcmi və xarakteri təkcə sırf milli hüquq dəyərlərinə qəsd müstəvisindən deyil, qlobal təhlükəsizliyə təhlükə və təhdid müstəvisindən də qiymətləndirilməlidir.

Məhz bu məqsədlər nəzərə alınmaqla, məqalədə təklif edilir ki, bəzən *soft law* – yəni yumşaq hüquq mənasında təqdim olunan, əslində isə əsas məzmununa görə korrupsiya cinayəti xarakteri daşıyan aşağıdakı əməllər: vəzifəli şəxs tərəfindən qanunla tələb olunmayan məlumatların əsasız olaraq tələb edilməsi, dövlət xidmətlərinin göstərilməsində fiziki şəxslərə, fərdi sahibkarlara və hüquqi şəxslərə əsassız üstün-

lük verilməsi, dövlət və bələdiyyə qulluğuna qəbul zamanı və sonrakı karyera yüksəlişində icazəsiz üstünlüklərin verilməsi, korrupsiyada vasitəçilik, qanunsuz varlanma kriminallaşdırılsın. Xüsusən müasir dövrdə korrupsiyanın təhlükəli təzahürlərindən biri olan qanunsuz varlanmanın müstəqil cinayət tərkibi kimi kriminallaşdırılması təklif olunur.

Bu əməlin milli qanunvericilikdə kriminallaşdırılması tələbi korrupsiya əleyhinə BMT Konvensiyasının 20-ci maddəsində nəzərdə tutulur. Eyni zamanda, bu gün ictimai rəydə belə bir mövqe üstünlük təşkil edir ki, hər yerdə məmurlar qanuni yolla əldə etdikləri vəsaitləri və yaxud gəlirləri hesabına deyil, ondan kənarda, yəni qanunsuz yolla əldə etdikləri imkanlarından istifadə edərək yaşayırlar. Odur ki, vəzifə səlahiyyətləri vasitəsilə qanunsuz əmlak əldə etmə hallarına qarşı ən sərt tədbirlər görülməlidir. Hesab edirik ki, bunun səbəbi qanunsuz varlanmaya tətbiq edilən intizam və mülki hüquqi məsuliyyət tədbirlərinin səmərəsizliyi ilə bağlıdır.

a) Korrupsiyanın anlayışı və onun mahiyyətinə dair doktrinal yanaşmalar

Tədqiqatçıların haqlı olaraq vurğuladığı kimi korrupsiyanı doğuran problemlərin həll edilməsi, və korrupsiyanın qarşısının alınması istiqamətində həyata keçirilən kompleks tədbirlərdən biri də onunla mübarizənin səmərəli elmi aspektlərinin işlənib hazırlanmasıdır [12]. Təbii ki, xüsusi maraq doğuran istənilən hüquqi hadisənin elmi əsaslarının formalaşdırılması həmin hüquqi hadisənin qanunvericilik qaydasında müəyyənliyi üçün olduqca əhəmiyyətli meyarlardan biri kimi qəbul edilir. Yəni qanunverici elmi əsaslara söykənən real həyat hadisələrini (ictimai münasibətləri) hüquqi cəhətdən tənzimləməyə xüsusi diqqət yetirməlidir.

Qlobal kriminallaşmanın təhlükəli təzahürlərindən biri kimi korrupsiya bir çox məna çalarlarına malik mürəkkəb sosial fenomendir. Latın dilindən tərcümədə korrupsiya (*corrumpere*) termini – pis qida ilə mədəyə zərər vermək, qapalı qabda suyu korlamaq, işləri alt-üst etmək, sərvəti israf etmək, əxlaqi dəyərləri aşağı salmaq, fürsətləri əldən vermək, mənbəni tükəndirmək, əmlaka əl qoymaq, azadlığı məhv etmək, qadınları yoldan çıxarmaq, gəncləri korlamaq, mənanı təhrif etmək, nəticələri saxtalaşdırmaq, ləyaqəti alçaltmaq [13, s. 11], Roma hüququ mənasında bir neçə şəxsin məhkəmə prosesinin və ya cəmiyyətin idarə olunmasının normal gedişatını pozmağa yönəlmiş fəaliyyəti [27, s. 477], rüşvət, azdırma, ictimai və siyasi xadimlərin, dövlət qulluqçularının və vəzifəli şəxslərin satqınlığı və s. bu kimi müxtəlif mənaları ifadə edir.

Korrupsiya müasir dövrün ən ciddi və təhlükəli təzahürlərindən biridir desək, təbii ki, yanılmarıq. Onun mövcudluğu dövlətin və cəmiyyətin siyasi, iqtisadi təhlükəsizliyinə, insanların əxlaqi, etik-mənəvi dəyərlərinə, normal biznes fəaliyyətinə, iqtisadi, kommersiya və sair sferalarda dövlətlərarası əməkdaşlığa real təhlükə yaradır. Odur ki, korrupsiya problemini tədqiq edən və araşdıran tədqiqatçıların əksəriyyəti onu təkcə hüquqi və kriminoloji deyil, həm də sosial, ictimai, siyasi-iqtisadi əhəmiyyətə malik sintetik bir anlayış kimi qiymətləndirir və elmi araşdırmalarda onun anlayışı geniş mənada və dar mənada *(cinayət hüquqi)* nəzərdən keçirilir.

Geniş mənada korrupsiya dövlət və bələdiyyə qulluqçuları, dövlət funksiyalarını yerinə yetirmək səlahiyyəti olan digər şəxslər tərəfindən özlərinin rəsmi mövqelərindən, statuslarından və tutduğu vəzifə səlahiyyətlərindən qanunsuz olaraq tamah məqsədilə fayda və üstünlük əldə etmək və ya üçüncü tərəflərə bu cür fayda və üstünlüklər vermək üçün istifadə etməsi ilə xarakterizə olunan, son nəticədə dövlət idarəetmə aparatının normal fəaliyyətinə ciddi təsir göstərən, hakimiyyətin parçalanmasına zəmin yaradan, cəmiyyətin deqradasiyasına səbəb olan mənfi sosial-hüquqi hadisədir. Aparılan elmi təhlil və

araşdırmalarda da korrupsiya dövlət və ictimai həyatın bütün sferalarına təhlükə törədən neqativ sosial-hüquqi hadisə kimi xarakterizə olunur. Məsələn, A.İ.Dolqova korrupsiyanı dövlət və ya digər vəzifəli şəxslərin rüşvətxorluğu və satqınlığı və bu əsasda onların rəsmi səlahiyyətlərindən, əlaqəli səlahiyyətlərindən şəxsi və ya dar qrup və ya korporativ maraqlar üçün imkanlardan tamah niyyəti ilə istifadə edilməsi ilə xarakterizə olunan sosial hadisə kimi dəyərləndirir [17, s. 4]. A.V.Kuzmin və E.A.Kozlovski də korrupsiyanın sosial-hüquqi rezonans doğuran problem olduğuna istinad edərək qeyd edirlər ki, o, həm hökumət və inzibati orqanların bütün qollarında (dövlət, bələdiyyə, özəl) rüşvətxorluğu, həm də tamah məqsədlərlə törədilən vəzifə cinayətlərini əhatə edən geniş bir anlayışdır [18, s. 165]. V.K.Maksimov qeyd edir ki, ictimai-sosial mənada korrupsiya vəzifəli şəxslərin sahib olduqları səlahiyyətlərdən, onlardan irəli gələn imkanlardan, eləcə də statusları və faktiki vəzifələri ilə əlaqədar olaraq əldə edə biləcəkləri digər dövlət resurslarından cəmiyyətin və digər şəxslərin maraqlarına zidd olaraq şəxsi, dar qrup və ya korporativ məqsədlər üçün fayda əldə etmək məqsədi ilə istifadədə ifadə olunan sapma davranışdır [21]. Tədqiqatçı alim T.Y.Xabrieva korrupsiyanı sosial təcrübənin hüquqi modelindən kənarda yerləşən, bununla belə, cəmiyyətdə baş verən bütün prosesləri özündə əks etdirən, tam bir institusional sistem olaraq mövcud olan sosial reallıq kimi xarakterizə edir [29, s.10].

Ruslan Hüseynov korrupsiyanın cəmiyyətə vurduğu zərərli nəticələrinə toxunaraq qeyd edir ki, bu cinayət özünün ictimai təhlükəlilik dərəcəsinə görə dövlətin əsas institutlarının fəaliyyətinə birbaşa təsir göstərir, rüşvət alma, vəzifə səlahiyyətlərindən sui-istifadə və dövlət əmlakının mənimsənilməsi kimi əməllər qanunun aliliyini zəiflədir, hüquqi bərabərliyi pozur, ədalət mühakiməsinə olan etimadı sarsıdır, sosial baxımdan vətəndaşlar arasında bərabərsizliyin artmasına və sosial ədalətsizliyin dərinləşməsinə səbəb olur və bundan da aztəminatlı əhali qrupları daha çox zərər görür, çünki onların sosial xidmətdən ədalətli istifadə imkanları məhdudlaşır və bu da öz növbəsində narazılığın artmasına, dövlətə və onun qurumlarına qarşı inamsızlığın güclənməsinə gətirib çıxarır, korrupsiya mənəvi və psixoloji aspektdə cəmiyyətin etik dəyərlər sistemini zəiflədir və gənc nəsildə yanlış davranışın formalaşmasına səbəb olur [6, s. 197].

Asif Qədirov qeyd edir ki, korrupsiya – vəzifəli şəxslərin özlərinin və təmsil etdikləri qurumların (orqanların) statusundan, vəzifə səlahiyyətlərindən və ya mövqeyindən irəli gələn imkanlardan istifadə etməklə qanunsuz olaraq maddi, əmlak və digər xarakterli nemətlər, imtiyazlar və ya güzəştlər əldə et-məsi, habelə fiziki və hüquqi şəxslər tərəfindən qeyd edilən nemətlərin, imtiyazların və ya güzəştlərin əldə edilməsi, qanunsuz olaraq vəzifəli şəxslərə təklif edilməsi və ya vəd olunması və yaxud verilməsi yolu ilə onların ələ alınmasından ibarət olan yüksək ictimai təhlükəli neqativ sosial hadisədir [8, s. 38].

Yuxarıda qeyd olunan yanaşmaların təhlili əsasında belə bir nəticəyə gələ bilərik ki, korrupsiya geniş mənada dövlət və cəmiyyət həyatının bütün sferalarına ciddi təsir göstərən neqativ sosial hadisədir və bu pozuntunun əsasını ümumi əlamətlər formasında aşağıdakı meyarlar təşkil edir: *birincisi,* dövlət və bələdiyyə qulluqçularının, dövlət funksiyalarını yerinə yetirmək səlahiyyəti olan digər şəxslərin fayda və üstünlük əldə etmək məqsədilə tamah motivli hərəkətləri; *ikincisi,* dövlət və bələdiyyə qulluqçularının, dövlət funksiyalarını yerinə yetirmək səlahiyyəti olan digər şəxslərin hərəkətləri ilə cəmiyyətin və dövlətin (ən dar mənada təşkilatın) qanuni maraqları arasında ziddiyyətin yaranması; *üçüncüsü,* dövlət və bələdiyyə qulluqçularına, dövlət funksiyalarını yerinə yetirmək səlahiyyəti

olan digər şəxslərə, dövlət orqanı və ya təşkilata həvalə edilmiş funksiyanı təhrif etmək və ya yerinə yetirməmək şəkilində zərərli nəticə.

Dar (*cinayət hüquqi*) mənada korrupsiya vəzifəli şəxslərin öz statusundan, habelə təmsil etdiyi orqanın (qurumun) statusundan və vəzifə səlahiyyətlərindən irəli gələn imkanlardan tamah məqsədilə şəxsi varlanma və ya qrup maraqlarının təmin olunması üçün vəzifə səlahiyyətlərindən sui-istifadə etməsi kimi tövsifedici əlamətlə xarakterizə olunan, qanunla qadağan olunan hüquq pozuntusudur. Korrupsiyanın belə oxşar anlayışı Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının 13 yanvar 2004-cü il tarixli Qanununda da öz təsdiqini tapıb. Həmin Qanunun 1.1.1-ci maddəsinə əsasən, *korrupsiya* – vəzifəli şəxslərin öz statusundan, təmsil etdiyi orqanın (qurumun) statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə qanunsuz olaraq maddi və s. nemətlər, imtiyazlar və ya güzəştləri istəməsi və ya alması, yaxud bu barədə təklif və ya vədi qəbul etməsi, habelə fiziki və hüquqi şəxslər tərəfindən qeyd edilən maddi və s. nemətlərin, imtiyazların və ya güzəştlərin qanunsuz olaraq vəzifəli şəxslərə təklif və ya vəd olunması, yaxud verilməsidir [7].

Hüquq ədəbiyyatında korrupsiyanın dar mənada, yəni cinayət hüquqi mənada anlayışına kifayət qədər yer verilmişdir. Məsələn, professor Rüstəm Məmmədovun və b. müəllifliyi ilə yazılmış tədqiqat əsərində qeyd olunur ki, korrupsiya dedikdə qulluq mövqeyindən sui-istifadə, rüşvət vermə, rüşvət alma, səlahiyyətlərindən sui-istifadə, kommersiya məqsədləri ilə ələ alma və ya fiziki şəxsin cəmiyyətin və dövlətin qanuni mənafelərinə zidd olaraq özü, yaxud üçüncü şəxslər üçün pul, sərvətlər, digər əmlak, yaxud əmlak xarakterli xidmətlər, digər əmlak hüquqları şəklində fayda əldə etmək məqsədilə qulluq mövqeyindən digər qanunsuz istifadə etməsi və ya başqa fiziki şəxslər tərəfindən həmin şəxsə belə faydanın qanunsuz şəkildə verilməsi, habelə belə əməllərin hüquqi şəxsin adından, yaxud mənafeləri naminə törədilməsi başa düşülür [9, s.9-10]. S.V. Maksimov korrupsiyanı – dövlət, bələdiyyə və digər dövlət qulluqçuları (o cümlədən parlament üzvləri və hakimlər) və ya kommersiya və ya digər təşkilatların (o cümlədən beynəlxalq təşkilatların) qulluqçuları tərəfindən qanunsuz olaraq əmlak, ona hüquqlar, xidmətlər və ya güzəştlər (o cümlədən qeyri-əmlak güzəştləri) əldə etmək üçün öz statuslarından istifadə etmələri və ya həmin şəxs tərəfindən bu cür əmlakın, ona hüquqların, xidmətlərin və ya güzəştlərin (o cümlədən qeyri-əmlak güzəştləri) təmin edilməsi kimi müəyyən edir [22,s.9]. Korrupsiya probleminin iqtisadi və siyasi tərəfləri ilə bağlı sanballı əsərlərin müəllifi Syüzan Rouz-Akkerman korrupsiyaya həcm baxımından qısa bir anlayış verir. O, qeyd edir ki, korrupsiya şəxsi mənfəət üçün dövlət hakimiyyətindən sui-istifadədir [24, s. 120]. Başqa bir tədqiqatda vurğulanır ki, korrupsiya siyasətçilərin, dövlət məmurlarının, iş adamlarının və digər şəxslərin sosial statuslarını zənginləşdirmək və yüksəltmək məqsədilə şəxsi, ailə və ya qrup maraqları naminə rəsmi vəzifələrdən yayınmadır [33, s. 179-193].

Professor L.D.Qauxman korrupsiyanı ən azı dörd mənada nəzərdən keçirməyi təklif edir: ümum-sosial, siyasi-iqtisadi, kriminoloji və cinayət hüquqi. Müəllifin fikrinə görə, ümum-sosial mənada korrupsiya vəzifəli şəxsin ona verilən səlahiyyətlərdən sui-istifadə etməsini və nəticədə qanunsuz şəxsi varlanma imkanlarının yaranmasını nəzərdə tutur. Korrupsiyanın siyasi-iqtisadi aspekti vəzifəli şəxslər tərəfindən hakimiyyət əldə etməklə dolayı yolla əmlakın və digər nemətlərin mənimsənilməsində ifadə olunur. Kriminoloji mənada korrupsiya dövlətin iqtisadi və siyasi təhlükəsizliyini təhdid edən antisosial, sosial təhlükəli bir fenomendir, vəzifəli şəxslər tərəfindən dövlətin, kommersiya və digər

təşkilatların və vətəndaşların hesabına şəxsi varlanma məqsədi ilə törədilən cinayətlərin məcmusudur. Cinayət hüququ mənasında korrupsiya cinayət qanunu ilə nəzərdə tutulan, vəzifəli şəxslər tərəfindən tamah məqsədi ilə mənfəət və şəxsi varlanma üçün vəzifə səlahiyyətlərindən sui-istifadə yolu ilə törədilən ictimai təhlükəli əməldir [16, s. 2].

Hesab edirik ki, korrupsiyanın müəyyənliyinə professor L.D.Qauxmanın geniş prizmadan yanaşması daha düzgündür. Birincisi, ona görə ki, korrupsiya ictimai həyatın sosial, siyasi-iqtisadi, hüquqi və s. kimi həyati əhəmiyyətli maraqlarına qəsd edən ictimai-təhlükəli hüquqazidd əməldir, yəni korrupsiyaya sadəcə eynicinsli cinayətlərin mexaniki məcmusu kimi deyil, qəsdə məruz qalan ictimai münasibətlərin əhəmiyyəti nəzərə alınmaqla, mürəkkəb sosial-hüquqi hadisə kimi baxmaq daha düzgündür; ikincisi, korrupsiya sistemli xarakter daşıyan olduqca təhlükəli bir hadisədir və məhz buna görə də onu sadəcə dövlət qulluqçusu tərəfindən birdəfəlik rüşvət alma kimi qəbul etmək olmaz; üçüncüsü, korrupsiya dövlət qulluqçularının və digər səlahiyyətə malik şəxslərin üçüncü tərəflərdən öz maraqları naminə maddi və digər nemətləri sistematik şəkildə almasında ifadə olunan ciddi hüquq pozuntusudur; dördüncüsü, korrupsiya cinayətləri yalnız fərdi və ya qrup maraqlarını təmin etməyə yönəlmiş əməllər deyil, eyni zamanda bütöv cəmiyyətin hüquqi, siyasi, sosial-iqtisadi və mənəvi əsaslarını sarsıdan təhlükəli hadisələrdir. Odur ki, korrupsiyaya daha geniş, kompleks təhlükə mənbəyi kimi baxmaq lazımdır. Yəni, korrupsiyaya yalnız dar mənada rüşvətxorluq kimi münasibət sərgilənməməlidir. Təbii ki, rüşvətxorluq korrupsiyanın nüvəsini təşkil edir, lakin bu, onların eyni olduğu anlamına gəlmir. Korrupsiya əməllərinin siyahısına rüşvətxorluqla yanaşı, bir sıra digər təhlükəli əməllər də daxil edilə bilər [14,s.7].

Bunun təsdiqi üçün qeyd edə bilərik ki, bu gün hüquq elminə əsas məzmununa görə korrupsiya cinayəti xarakteri daşıyan, lakin qanunvericilikdə indinin özünə kimi kriminallaşdırılma baxımından öz təsdiqini tapmayan korrupsiyanın təzahürləri məlumdur. Məsələn, vəzifəli şəxs tərəfindən qanunla tələb olunmayan məlumatların əsasız olaraq tələb edilməsi, dövlət xidmətlərinin göstərilməsində fiziki şəxslərə, fərdi sahibkarlara və hüquqi şəxslərə əsassız üstünlük verilməsi, dövlət və bələdiyyə qulluğuna qəbul zamanı və sonrakı karyera yüksəlişində icazəsiz üstünlüklərin verilməsi, korrupsiyada vasitəçilik, qanunsuz varlanma və s. bu kimi korrupsiya təzahürlərinin kriminallaşdırılmasına ehtiyac vardır.

Sual: qanunsuz varlanma korrupsiyanın bir təzahürü kimi nə üçün cinayət qanunvericiliyində müstəqil cinayət tərkibi kimi kriminallaşdırılmayıb? Bu gün qanunsuz varlanma birbaşa cinayət hüququnun deyil, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1091-ci maddəsinin (əsassız varlanma) tənzimlədiyi mülki hüquqi öhdəlikdir. Mülki Məcəllənin 1091.1-ci maddəsində qeyd olunur ki, əsassız varlanan o şəxs (varlanmış şəxs) sayılır ki, hüquqi əsas olmadan başqa şəxsin (məhrum olanın) hesabına əmlak əldə edir. 1091.2-ci maddəyə görə isə, əsassız varlanma yalnız o zaman baş verir ki, bu cür varlanmaya haqq qazandıran qanuni əsas və ya müqavilə əsası olmur. Hüquqi əsas olmadan varlanma həmçinin o hallarda baş vermiş sayılır ki, bu cür varlanma həyata keçirilməmiş əsasa və ya sonralar aradan qalxmış əsasa söykənir [1, s. 617]. Qanunsuz (əsassız) varlanmanın predmeti olan əmlakın (məsələn, torpaq sahəsinin, qiymətli kağızın) qaytarılması və ya dəyərinin ödənilməsi mülki hüquqi məsuliyyətə səbəb olur. Lakin ictimai rəydə belə bir yanaşma üstünlük təşkil edir ki, hər yerdə məmurlar öz qanuni yolla əldə etdikləri vəsaitləri və yaxud gəlirləri hesabına deyil, ondan kənarda, yəni qanunsuz yolla əldə etdikləri imkanlarından istifadə edərək yaşayırlar. Odur ki, vəzifə səlahiyyətləri vasitəsilə qa-

nunsuz əm-lak əldə etmə hallarına qarşı ən sərt tədbirlər görülməlidir.

Qanunsuz varlanmanın müstəqil cinayət tərkibi kimi kriminallaşdırılması öhdəliyi 2003-cü il BMT-nin korrupsiya əleyhinə Konvensiyasında nəzərdə tutulur. Konvensiyanın 20-ci maddəsində iştirakçı dövlətin üzərinə belə bir öhdəlik qoyulur ki, o, öz konstitusiyasına və hüquq sisteminin əsas prinsiplərinə riayət etmək şərtilə qanunsuz varlanmanı, yəni dövlət vəzifəli şəxsin əmlakının onun öz qanuni gəlirlərinə nisbətdə ağlabatan surətdə əsaslandıra bilmədiyi xeyli artımını, bu, qəsdən edildikdə, cinayət cəzalanmalı əməl kimi təsnif etmək üçün lazım gələn qanunvericilik və başqa tədbirləri görə bilər [3]. Elə bu yerdə onu qeyd etmək istərdik ki, 20-ci maddənin dispozisiyası qanunsuz varlanmanın tərkib elementlərini tam əhatə etmir, lakin bu, Konvensiyanın iştirakçı dövlətlərini həmin əməlin kriminallaşdı-rılması üzrə müvafiq qanunvericilik tədbirlərinin görülməsindən azad etmir. Yəni 20-ci maddənin müəyyənliyi nə qədər dispozitiv olsa da, lakin iştirakçı dövlət qanunsuz varlanmanın getdikcə geniş vüsət almasını nəzərə alaraq, onun kriminallaşdırılması ilə bağlı qanunverici xarakterli tədbirlər görə bilər.

Qanunsuz varlanmanın kriminallaşdırılmasının nəzəri problemlərini araşdıran V.N.Burlakov öz əsərində qeyd edir ki, bu əməlin müstəqil cinayət tərkibi kimi tanınması üçün aşağıdakı təkzibolunmaz meyarlar mövcuddur: birincisi, qanunsuz varlanma vətəndaşlar tərəfindən ictimai təhlükəli və geniş yayılmış bir hadisə kimi qəbul edilir; ikincisi, qanunsuz varlanmanın cinayət hesab edilməsi hakimiyyət orqanları tərəfindən məqsədyönlü bir addım olacaq, çünki belə addımın müsbət nəticələri mənfi nəticələrdən xeyli çox olacaq və mənfi nəticələr əsasən məmurların müəyyən bir hissəsinin maddi rifahının aşağı düşməsində ifadə olunacaq, bu isə heç bir sosial əhəmiyyət kəsb etməyəcəkdir; üçüncüsü, qanunsuz varlanmanın cinayət hesab edilməsi dövlətin konstitusiyasına, mövcud qanunvericiliyinə və ya tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, eləcə də əxlaq normalarına zidd deyil və bu qanunsuz əməlin sosial təhlükəliliyi və yayılması ilə bağlı deyilən hər şey bu nəticəni dəstəkləyir; dördüncüsü, qanunsuz varlanmanın kriminallaşdırılması prosessual və kriminalistik baxımdan, yəni belə bir əməl qanuni vasitələrlə aşkar edilməli və araşdırılmalıdır; beşincisi, qanunsuz varlanma dinamikasındakı mənfi tendensiya bu cür əməllərə tətbiq edilən intizam və mülki hüquqi məsuliyyət tədbirlərinin səmərəsizliyini nü-mayiş etdirir, odur ki, qanunsuz varlanmaya görə cinayət məsuliyyətinin tətbiqi məcburi tədbirlərin ye-tərliliyi prinsipinə zidd deyil [15, s. 13-14].

Qanunsuz varlanmanın predmeti qismində torpaq sahəsi, nəqliyyat vasitələri, qiymətli kağızlar, digər daşınmaz əmlak, səhmlər və s. ola bilər. Belə əmlak vəzifəli şəxsin qazanılmamış gəliri, yəni dövlət və bələdiyyə büdcəsindən və qanunla qadağan olunmayan digər fəaliyyətlərdən ödənilən pul kompensasiyasından artıq olan gəlir hesab edilə bilər.

Beləliklə, ictimai təhlükəli davranışın kriminallaşdırılması prinsipi nöqteyi-nəzərindən qanunsuz varlanmaya görə cinayət məsuliyyətinin müəyyən edilməsi, hesab edirik ki, olduqca əsaslı və məntiqlidir. Lakin, belə bir implementasiya aktının həyata keçirilməsi imkanı bir tərəfdən konvension normanın özündən, digər tərəfdən isə milli cinayət qanunvericiliyindən və dövlətin cinayətkarlıqla mübarizə siyasətindən asılıdır.

Müasir dövrdə korrupsiyanı yalnız rüşvət və hakimiyyətdən sui-istifadə ilə məhdudlaşdırmaq, belə demək mümkünsə, onun ictimai təhlükəliliyini azaltmaq deməkdir. Kriminal qloballaşmanın təhlükəli təzahürlərindən biri kimi o, korrupsiyalı lobbiçilik, korrupsiyalı favoritizm, korrupsiyalı proteksionizm, nepotizm, dövlət resurslarının və vəsaitlərinin qanunsuz bölüşdürülməsi və yenidən bölüşdürülməsi,

dövlət resurslarının şəxsi mənfəət üçün qanunsuz mənimsənilməsi, hədə-qorxu ilə pul tələb etmə, tamah maraqları təmin etmək üçün səlahiyyət və ya vəzifə səlahiyyətlərindən sui-istifadə kimi cinayətləri əhatə edir. Göründüyü kimi korrupsiya çoxşaxəli sosial-hüquqi hadisədir və bu səbəbə görə də onun bütün ölkələr üçün məqbul olan universal hüquqi tərifi çətin ki, mümkün olsun. Hətta BMT-nin 2003-cü il korrupsiya əleyhinə Konvensiyasında, Avropa Şurasının 1999-cu il korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında Konvensiyasında və BMT-nin 2000-ci il transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasında (8-ci m.) bu cinayətin tərifi verilmir.

Bir məsələni də qeyd etmək yerinə düşər ki, korrupsiyanın anlayışına dair yuxarıda təhlilini apardığımız hər iki yanaşmada bu termin, bir qayda olaraq, vəzifəli şəxsin şəxsi mənfəəti üçün vəzifə səlahiyyətlərindən sui-istifadə ilə əlaqələndirilir. Korrupsiya fəaliyyətinin hüquqi fəlsəfəsi ondan ibarətdir ki, bu prosesdə həmişə iki tərəf: rüşvət verən və rüşvət alan iştirak edir. Rüşvət verən bir çox hallar-da korrupsiyanın ilkin mənbəyi kimi çıxış edir, rüşvət alan isə maraqlı şəxslərə öz səlahiyyətlərini "satan" vəzifəli şəxs, özəl firma əməkdaşı, dövlət, yaxud bələdiyyə qulluqçusudur [9, s.10]. Elmi araşdırmalarda belə bir fikrə rast gəlinir ki, vasitəçilər də korrupsiya münasibətlərində iştirak edə bilərlər [30, s. 55].

b) Korrupsiyanın iqtisadi, siyasi, sosial, hüquqi, etik mahiyyəti və onun baş vermə səbəbləri

Korrupsiya fenomeninə onun *mahiyyəti* prizmasından yaşdıqda, onu qeyd edə bilərik ki, korrupsiyanın mahiyyəti onun əsas məzmunudur və məhz onun vasitəsilə "*korrupsiya nədir*" sualına cavab verilir. Korrupsiya iqtisadi, sosial, siyasi, hüquqi və etik dəyərlərə zərər vurduğundan, onun mahiyyətinə sadalanan dəyərlər prizmasından yanaşılır və qiymətləndirilir.

İqtisadi baxımdan korrupsiya, ictimai və ya dövlət sərvətinin hakimiyyət qərarları qəbul etmək səlahiyyətinə malik olan kiçik bir dairənin xeyrinə yenidən bölüşdürülməsinə yönələn müəyyən iqtisadi münasibətlərdir. İ.D.Fialkovskaya vurğulayır ki, korrupsiyanın iqtisadi aspekti mövqeyindən iqtisadiyyatın üç növü ayrılır: nəzərə alınmayan iqtisadiyyat, qeydiyyatsız iqtisadiyyat, qeyri-qanuni iqtisadiyyat və onların hər biri korrupsiyanın formalaşmasında iştirak edir. Burada əsasən biznesin hüquqlarını və onun müdafiə təminatını müəyyən edən inzibati qanunvericilikdən istifadə olunur [28, s. 139].

Korrupsiya mülkiyyət və iqtisadi cinayətlərin ən ağır formasında özünü göstərməklə, cəmiyyətin həyatının bir çox sahələrinə, o cümlədən, insanların sosial-iqtisadi problemlərinin həllinə dağıdıcı zərbə vurur. Odur ki, inkişaf etmiş istər demokratik, istərsə də müstəqillik əldə etmiş dövlətlərdə bir-birindən fərqli olsa da, korrupsiyaya qarşı mübarizə proqramları, ayrı-ayrı qanunlar işlənib hazırlanır və bu sahədə beynəlxalq əməkdaşlıq gücləndirilir [10, s.7].

Göründüyü kimi korrupsiyanın iqtisadi mahiyyəti dövlət büdcəsinin və maliyyə vəsaitlərinin talanmasına, mənimsənilməsinə, resursların dağıdılmasına səbəb olur, azad bazar iqtisadiyyatını və sağlam rəqabətin qarşısını alır, investisiya mühitini pisləşdirir və son nəticədə layihələrin və xidmətlərin dəyərinin süni şəkildə şişirdilməsinə gətirib çıxarır, başqa bir tərəfdən isə insanların sosial-iqtisadi problemlərinin həllinə dağıdıcı təsir göstərir, iqtisadi bərabərsizliyə zəmin yaradır.

Siyasi nöqteyi-nəzərdən korrupsiya, dövlət aparatının parçalanmasına, dövlət idarəçiliyinin səmərəsizliyinə və dövlətin fəaliyyət qabiliyyətinin itirilməsinə səbəb olan dövlət və ya digər publik hakimiyyətdən şəxsi mənfəət üçün istifadədir. Siyasi korrupsiya bir növ dövlət strukturları ilə cəmiyyətin digər elementləri arasında qeyri-rəsmi, nəzarətsiz resurslar mübadiləsinə

əsaslanır. Siyasi korrupsiyanın mövcudluğu etimadın itməsinə səbəb olur, yəni vətəndaşların dövlət qurumlarına və idarəetmə aparatına olan inamını sarsıdır, siyasi elita və bürokratik mexanizmlər xalqın deyil, dar qrupların maraqlarına xidmət edir, qanunların aliliyi üstələnir, demokratik institutların normal fəaliyyətinə əngəl törədilir. Təd-qiqatçıların haqlı olaraq vurğuladığı kimi bu hadisə ən çox dövlət büdcələrində baş verir. Bu növ korrupsiyanın çətinliyi həmin cinayət əməllərinin törədilməsinin motivlərini müəyyən etməkdədir, çünki əksər qanunsuz hərəkətlər siyasi məqsədlərə çatmaq üçün istifadə olunur [25, s.814-815].

Siyasi korrupsiya konkret bir ölkədə baş verən siyasi böhranların, xalqın narazılığının əsas səbəbi və daxili modernləşmə potensialının reallaşdırılmasına və beynəlxalq standartlara uyğunlaşdırılma-sına maneədir. Onun xüsusi təhlükəliliyi onda ifadə olunur ki: birincisi, o, sadəcə bir sahədə (siyasi və ya hökumət) korrupsiya deyil, cəmiyyətin və dövlətin digər sahələrinə də təsir göstərir; ikincisi, siyasi korrupsiya latent xarakterə malikdir, yəni o, vətəndaşlar üçün aşkar deyil və bu sahədəki vəzifəli şəxslərin hərəkətləri universaldır və ictimai və dövlət həyatının müxtəlif sahələrinə təsir göstərir; üçüncüsü, bu növ korrupsiya. həm bürokratiyanın, həm də siyasətin ayrılmaz fəaliyyəti probleminin həllinin ol-maması səbəbindən dövlət idarəçiliyinin bütün səviyyələrinə təsir göstərir [26, s. 35].

Sosial baxımdan korrupsiya, hakimiyyətdə olan kiçik bir qrup insanın cəmiyyətin qalan hissəsinin hesabına varlanması, varlılarla kasıblar arasında güclü təbəqələşməyə, sosial bərabərsizliyə və ədalətsizliyə səbəb olmasıdır. Korrupsiyanın mövcudluğu sosial baxımdan xidmətlərə və hüquqlara bərabər hüquqlu çıxışı məhdudlaşdırır, qeyri-rəsmi imtiyazlar yaradır, səhiyyə, təhsil və sosial müdafiə sahələrinə ayrılan dəstəyin zəifləməsinə səbəb olur, cəmiyyətin deqradasiyası prosesi sürətlənir. Bu təkzib olunmayan bir faktdır ki, korrupsiyanın anlayışı və onun konkret təzahürlərinin dairəsi bu hadisənin sosial mahiyyətinin dərk olunmasından asılıdır. Korrupsiyanın mahiyyəti ondan ibarətdir ki, o, sosial münasibətləri təhrif edir, cəmiyyətdə bərqərar olan normal qaydanı pozur, nəticədə sosial bərabərsizliyə və ədalətsizliyə yol açılır, özbaşınalıq halları çoxalır, hüququn nüfuzu və təsir gücünə inamsızlıq yaranır.

Korrupsiyanın hüquqi mahiyyəti onda ifadə olunur ki, vəzifəli şəxs (burada söhbət geniş anlam-da vəzifəli şəxslərdən gedir) cəmiyyətin və dövlətin qanuni maraqlarına zidd olaraq öz vəzifə mövqeyindən, rəsmi vəzifəsindən, səlahiyyətindən və statusundan tamah məqsədilə şəxsi və ya qrup mənfəəti əldə etmək üçün istifadə edir. Bu, rüşvətxorluq, vəzifə səlahiyyətlərindən sui-istifadə, kommersiya rüşvəti, qanunsuz varlanma və bu kimi korrupsiya cinayətlərində özünü göstərir.

Cinayət hüququ mənada əməlin korrupsiya cinayəti kimi tövsif edilməsi üçün onun subyekti mütləq xüsusi subyekt olmalıdır. Xüsusi subyekt statusuna dövlət və bələdiyyə orqanlarının vəzifəli şəxsləri, həmçinin kommersiya orqanlarında, idarəetmə strukturlarında rəsmi səlahiyyətə malik olan şəxslər aiddir. Korrupsiya hüquqi mənada müvafiq dövlətin konstitusiya və qanunvericiliklə müəyyən edilmiş hüquq normalarının birbaşa pozulmasıdır və bu əməl vəzifəli şəxsin hərəkət və ya hərəkətsizliyində ifadə olunur, subyektiv cəhətdən birbaşa niyyətlə, yəni tamah məqsədilə şəxsi və ya qrup maraqların təmin olunmasına xidmət edir.

Məsuliyyətin labüdlüyü prinsipinə görə, korrupsiya mülki hüquqi, inzibati hüquqi və cinayət hüquqi məsuliyyət doğurur. Hesab edirik ki, bu gün korrupsiyaya qarşı mübarizədə ən təsirli tədbirlər, şübhəsiz ki, təqsirli şəxslərin hüquqi məsuliyyətə cəlb edilməsidir. Hüquqi məsuliyyət dövlət məcburiyyət sistemində mərkəzi mövqe

tutur və digər məcburiyyət tədbirləri ilə çoxsaylı əlaqələndirici, subordinasiyalı və genetik əlaqələrə girir. Sahələrarası hüquq institutu və hüquqi tənzimlənmənin hərtərəfli vasitəsi kimi hüquqi məsuliyyət dövlətin, cəmiyyətin və fərdin təhlükəsizliyini təmin edir [23, s. 295]. Qeyd olunan fikirdən göründüyü kimi, korrupsiya ilə mübarizə hüquqi məsuliyyətin kompleksini tələb edir. Yəni, şəxs ağır korrupsiya cinayətlərinə görə azadlıqdan məhrum etmə, külli miqdarda cərimə və müəyyən vəzifə tutma qadağasına məruz qala bilər, inzibati hüquq qaydasında intizam, töhmət və ya etibarın itirilməsi ilə əlaqədar işdən çıxarılma ilə üzləşə bilər, qanunsuz əldə edilmiş əmlakın ələ keçiril-məsi və vurulmuş zərərin ödənilməsinə görə mülki hüquqi məsuliyyət daşıya bilər. Biz, o alimlərin yanaşmasını və mövqeyini dəstəkləyirik ki, dövlət məcburiyyət tədbirləri sistemindəki xüsusi mövqeyinə görə hüquqi məsuliyyət şəxsin üzərinə cəzanın vahid konstruksiyası ilə əhatə olunan əlavə qadağalar və məhdudiyyətlər qoysun [19, s. 202-218]. Hesab edirik ki, korrupsiyanın təzahür formalarına qarşı mübarizədə ən səmərəli təsir vasitəsi cinayət hüquqi tədbirlər sistemidir.

Korrupsiyanın etik mahiyyəti dərin mənəvi böhranda, ictimai etimadın itirilməsində, dürüstlüyün məhv edilməsində, etibarın xəyanətində və şəxsi mənfəətin ictimai rifahdan üstün tutulmasındadır.

Beləliklə, korrupsiya siyasi, iqtisadi, sosial, hüquqi və etik mahiyyət kəsb edən mürəkkəb fenomendir. Onun mahiyyətinə hansı prizmadan yanaşılmasından asılı olmayaraq, o, cəmiyyətin və dövlətin həyati əhəmiyyətli dəyərlərini zədələyir və ona qəsd edir.

O ki qaldı korrupsiyanın baş vermə səbəblərinə, belə səbəblər qismində iqtisadi, siyasi, hüquqi və etik faktorlar çıxış edir. Korrupsiyanın iqtisadi səbəblərinin əsasında, obrazlı şəkildə ifadə etsək, hər bir insanın öz ehtiyaclarını ödəmək istəyi durur. Yəni, insanın öz ehtiyaclarını ödəməyə olan istəyi (motivlənmiş məqsədi) onu qanunla qadağan olunan əmələ sövq edir. Təbii ki, korrupsiya cinayətinin subyektləri xüsusi subyektlərdir və onlar qanuni olaraq aldığı əmək haqqı ilə öz ehtiyaclarını ödəyə bilmə-dikləri qənaətinə gələrək, özlərinin rəsmi mövqelərindən, statuslarından, səlahiyyətlərindən maddi mənfəət əldə etmək məqsədi ilə istifadə etməyə meyillənirlər. Bu səbəbdən, korrupsiya, ən ciddi hüquqi tədbirlər mexanizmi müəyyən edilsə belə, heç vaxt tamamilə aradan qaldırıla bilməz. Lakin, dövlət qulluqçularının əmək haqqını artırmaqla onu azaltmaq olar.

Korrupsiyanın digər iqtisadi səbəblərinə aşağıdakılar daxildir: iqtisadiyyatda dövlət sektorunun üstünlük təşkil etməsi; bazar inhisarçılığı və inkişaf etməmiş rəqabət; xammal əsaslı iqtisadiyyat, iqtisadi cəhətdən aktiv orta təbəqənin olmaması və ya inkişaf etməməsi və s. Bəzi tədqiqatlarda qeyd olunur ki, korrupsiyanın baş verməsinə səbəb olan amillərdən biri də büdcəyə vergi daxilolmalarının azalmasına səbəb olan kölgə iqtisadiyyatı sektorunun genişləndirilməsi, büdcə vəsaitlərindən səmərəsiz istifadə etmədir [20, s.13].

Göründüyü kimi, korrupsiyaya qarşı mübarizədə iqtisadi amillər müəyyənedici rola malikdir və korrupsiyanın səviyyəsini əhəmiyyətli dərəcədə azaltmaq üçün ilk növbədə məhz iqtisadi problemləri həll etmək lazımdır. Ona görə ki, korrupsiyanın mövcudluğu dövlət gəlirlərini azaldır və dövlət xərclərini artırır ki, bu da daha böyük büdcə kəsirinə səbəb olur və hökumətin sağlam maliyyə siyasəti yürütməsini çətinləşdirir [35, s. 1-23].

Korrupsiyanın siyasi səbəbləri bu və ya digər şəkildə iqtisadi səbəblərdən asılıdır. Əgər hansısa bir dövlətdə demokratik siyasi rejim bərqərar deyilsə, hakimiyyətin bölgüsü prinsipi yoxdursa, qanunun aliliyi tanınmırsa, təbii ki, həmin dövlətdə korrupsiyanın baş vermə imkanı

mütləqdir. Bir halda ki, belə dövlətlərdə hər şeyə nəzarəti əlində cəmləşdirən xarizmatik və yaxud monopolist dövlət və hökumət mövcud olur, dövlət və hökumət başçıları olur və belə vəziyyət istər-istəməz korrupsiyaya əlverişli şərait yaradır. Hakim elita "ikili standartlar" siyasəti həyata keçirir, korrupsiyaya qarşı mübarizə görüntüsü yaratmağa çalışır, əslində isə özünü xırda, gündəlik rüşvətxorları tutmaqla məhdudlaşdırır. Böyük korrupsiyalara qurşanmış məmurlar isə, bir qayda olaraq, hüquq-mühfizə orqanları üçün toxunulmaz olduqlarına görə, məsuliyyətə cəlb olunmur, nəticədə dövlətin siyasi idarəçilik sistemi korrupsiyalaşmış bir instituta çevrilir. Bununla əlaqədar İnge Amundsen qeyd edir ki, siyasi korrupsiya siyasi qərar qəbul edənləri əhatə edir. Siyasi və ya böyük korrupsiya siyasi sistemin yüksək səviyyəsində baş verir. Bu, xalqın adından qanunlar qəbul etmək və tətbiq etmək hüququna malik siyasətçilər və dövlət qulluqçularının özləri korrupsiyaya uğradıqları zaman baş verir. Müəllif sonra qeyd edir ki, siyasi korrupsiya, siyasi qərar qəbul edənlərin güclərini, statuslarını və sərvətlərini qorumaq üçün silahlanmış olduqları gücdən istifadə etmələridir [31, s. 3].

Korrupsiyanın siyasi səbəblərinə aşağıdakılar da daxildir: böyük biznes üzərində monopolist nəzarət (oliqarxik dövlət); hakimiyyət bölgüsündə "yoxlama" və "tarazlıq" mexanizminin pozulması; icra hakimiyyətinin qanunvericilik və məhkəmə hakimiyyəti üzərində dominantlığı, plüralist demokratiyanın olmaması; qohumbazlıq, vəzifə yüksəlişində qohumlara, dostlara əsassız üstünlük verilməsi və s.

Korrupsiyanın hüquqi səbəbləri mövcud qanunvericiliklərdəki boşluqlar, zəif hüquqi nəzarət və effektiv məsuliyyət mexanizmlərinin olmaması ilə bağlıdır və bu amillər də vəzifəli şəxslərin rəsmi səlahiyyətlərindən sui-istifadə üçün şərait yaradır. Əslində, korrupsiyanın hüquqi səbəbləri iqtisadi və siyasi səbəblərdən az əhəmiyyətlidir. Məlumdur ki, hüquq cəmiyyətdə və dövlətdə ictimai münasibətlərin tənzimləyicisi kimi çıxış edir və o, bu aspektdə mövcud iqtisadi və siyasi münasibətləri rəsmiləşdirir. Əgər, cəmiyyətin mövcudluğunun əsasını təşkil edən iqtisadi və siyasi münasibətlər mahiyyəti üzrə kor-rupsiyaya uğrayıbsa, təbii ki, qanun özündə çoxsaylı korrupsiya faktorlarını əks edəcəkdir. Qanunda mövcud olan hüquqi boşluqlar korrupsiyaya uğramış mexanizmlərin legitimləşdirilməsinə səbəb olur və ya qanun sadəcə olaraq korrupsiyaya uğramış şəkildə tətbiq olunur və ya hüquq-mühafizə orqanlarının təcrübəsində təhrif olunur.

Bundan əlavə. korrupsiyanın baş verməsinə stimul verən hüquqi səbəblərə aşağıdakı boşluqlar da əhəmiyyətli təsir göstərir: qüvvədə olan qanunlarda hüquqi anlayışların və terminlərin qeyri-müəyyənliyi və ya ikili məna kəsb etməsi, beynəlxalq təcrübənin və təşəkkül tapmış beynəlxalq hüquqi standartların qanunverici tərəfindən lazımi diqqətə alınmaması, insanlar arasında korrupsiya haqqında elementar məlumatın olmaması, hüquqi savadsızlığın, hüquqi düşüncənin və hüquq mədəniyyətinin aşağı səviyyədə olması, dövlət hakimiyyəti orqanları və vəzifəli şəxslər tərəfindən hər hansı bir vəzifənin pozulmasına və ya səlahiyyətlərinin yerinə yetirilməməsinə görə hüquqi məsuliyyət tədbirlərinin olmaması, hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən qanunun əsassız olaraq özbaşına şərh edilməsi və s.

Korrupsiyanın etik səbəblərinə gəldikdə, onu qeyd etmək lazımdır ki, cəmiyyətdə çox vaxt onun etik səbəbləri qiymətləndirilmir və ya ciddiyə alınmır. Buna baxmayaraq, dövlətin səyləri korrupsiyanı təkcə qanunsuz deyil, həm də qəbuledilməz hala gətirməyə yönəldilməlidir. Ən əsası ona görə ki, korrupsiya mənəvi dəyərlərin zəifləməsinə, peşə məsuliyyətsizliyinə yol açdığına, cəmiyyətdə dürüstlük və vicdan kimi təməl dəyərlərin dəyərdən düşməsinə, maraqların toqquşmasına səbəb olduğu üçün, dövlət onun-

la mübarizənin etik aspektinə də xüsusi önəm verməlidir. Başqa sözlə ifadə etsək, korrupsiya ilə mübarizə siyasəti bu cinayətin təzahürlərinin qanunvericilikdə kriminallaşdırılmasına, cəzanın sərtləşdirilməsinə, insanların iqtisadi rifahının artırılmasına və ən nəhayət ictimai qınağa söykənməlidir.

c) Korrupsiyanın müxtəlif əsaslara görə təsnifatı (növləri və tipləri)

Hüquq ədəbiyyatında korrupsiyanın müxtəlif meyarlara əsaslanmaqla çoxsaylı növləri fərqləndirilir:

İctimai təhlükəlilik dərəcəsindən asılı olaraq korrupsiya cinayətkar və qeyri-cinayətkar olaraq iki növə bölünür. Cinayətkar korrupsiya cinayət tərkibini ehtiva edən aşağıdakı korrupsiya əməllərini ehtiva edir: vəzifə səlahiyyətlərindən sui-istifadə, rüşvət alma, rüşvət vermə, kommersiya rüşvətxorluğu, təsir alveri və d. Bu cinayətlərin törədilməsinə görə cinayət qanununda təqsirli şəxslərin cinayət məsuliyyəti müəyyən edilir.

Qeyri-cinayətkar korrupsiya və ya korrupsiya ilə əlaqədar cinayət tərkibi yaratmayan hüquq-pozmaları müəyyən kateqoriya şəxslər üçün müəyyən edilmiş hüquqi qadağaların tələblərinin pozulmasında ifadə olunur. Məsələn. ədliyyə orqanlarında qulluq keçmə haqqında Azərbaycan Respublikasının Qanununun 11-ci maddəsində vurğulanır ki, ədliyyə orqanlarının işçisi heç bir seçkili və ya digər təyinatlı vəzifə tuta bilməz, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa, heç bir sahibkarlıq, kommersiya və ya digər ödənişli fəaliyyətlə, həmçinin siyasi fəaliyyətlə məşğul ola və siyasi partiyalara üzv ola bilməz (11.1.), işlədiyi ədliyyə orqanı rəhbərinə bildirmədən xarici ölkənin vəsaiti hesabına xaricə gedə bilməz (11.2.4.) və s. [5].

Korrupsiya münasibətlərinin *təşəbbüskarından* asılı olaraq, mütəxəssislər aşağı səviyyəli (xırda, gündəlik) və yüksək səviyyəli (böyük, elit) korrupsiyanı fərqləndirirlər. Aşağı səviyyəli korrupsiya əsasən hökumətin aşağı və orta səviyyələrində geniş yayılmış məmurlarla vətəndaşlar arasında daimi qarşılıqlı fəaliyyətdə təzahür edir. Məsələn, polis əməkdaşına, müəllimə, dövlət və bələdiyyə xidmətləri zamanı qulluqçulara rüşvətin verilməsi buna nümunə kimi qeyd edilə bilər.

Ölkənin ən yüksək vəzifəli şəxslərinin, məsələn, nazirlərin, komitə rəhbərlərinin, prezident administrasiyasının vəzifəli şəxslərinin, hakimlərin, parlament üzvlərinin və d. yüksək səlahiyyətli şəxslərin qanunsuz fəaliyyəti ilə əlaqədar korrupsiya yüksək səviyyəli və ya elit korrupsiya hesab olunur. Başqa sözlə ifadə etsək, yüksək səviyyəli korrupsiya dövlətdə siyasi hakimiyyət tərəfindən törədilən korrupsiyadır və həmin əməlləri törədən şəxslər kateqoriyasının hakimiyyət nərdivanında vertikal mövqeyə malik olmaları, onların korrupsiya əməllərinin latentləşməsinə imkan yaradır.

Son zamanlar iqtisadi-maliyyə və siyasi münasibətlərin qloballaşması fonunda korrupsiya əməllərinin beynəlxalq miqyas alması və yaxud transmilliləşməsi, yəni onun əhatə dairəsinin genişlənərək sərhədlərin hüdudundan çox-çox kənara çıxması, sonda hüquqi dövriyyəyə beynəlxalq korrupsiya və transmilli korrupsiya terminlərinin daxil olmasına səbəb olmuşdur. Ümumi qaydaya görə, beynəlxalq korrupsiya və transmilli korrupsiya cinayətlərinin iştirakçıları qismində beynəlxalq vəzifəli şəxslər, diplomatlar, siyasətçilər, transmilli korporasiyaların, FİFA və bu kimi d. beynəlxalq təşkilatların məmurları çıxış edir.

Fikrimizcə, beynəlxalq korrupsiya və transmilli korrupsiya anlayışlarını eyniləşdirmək olmaz. Korrupsiya cinayətinin transmilli xarakterə malik olma şərti BMT-nin transmilli mütəşəkkil cinayətkarlığa qarşı 2000-ci il Konvensiyasında təsbit olunub. Konvensiyanın 3-cü maddəsinin (a) və (b) bəndlərinin tələblərinə görə, əgər cinayət transmilli xarakter daşıyırsa və mütəşəkkil cina-

yətkar qrupun iştirakı ilə törədilmişdirsə, əməl o halda transmilli cinayət hesab edilir [4]. Deməli, transmilli korrupsiyadan o halda danışmaq olar ki, həmin cinayətkar niyyət iki və ya daha çox dövlətin ərazisini əhatə etmiş olsun və iki və ya daha çox dövlətin vətəndaşlarından ibarət mütəşəkkil qrupun iştirakı ilə törədilsin.

Palermo Konvensiyasına əsasən mütəşəkkil cinayətkar qrup dedikdə – birbaşa və ya dolayı maliyyə və digər maddi mənfəət almaq üçün bir və ya bir neçə ciddi cinayəti və ya bu Konvensiyaya uyğun olaraq cinayət kimi tanınmış cinayətləri törətmək məqsədi ilə müəyyən müddət ərzində mövcud olan və birgə hərəkət edən üç və ya daha çox şəxsin struktur şəklində təşkil edilmiş qrupu başa düşülür. Onu da qeyd edək ki. mütəşəkkil cinayətkarlıq uzun müddətə hesablanan və başlıca olaraq iqtisadiyyat sahəsində peşə növündə törədilən sistematik cinayətkar fəaliyyətdir. Bu fəaliyyətin strategiya və taktikası yüksək mənfəət əldə edilməsi və ictimai həyatın müəyyən sahəsinə təsir göstərmək məqsədi ilə cinayətkar birlik tərəfindən planlaşdırılır və həyata keçirilir.

Bir faktı yaddan çıxarmaq olmaz ki, transmilli korporasiyalar iqtisadi fayda əldə etmək məqsədi ilə istənilən xarici ölkənin təsərrüfat subyektləri ilə iqtisadi fəaliyyətə girməkdə maraqlıdırlar. Ən maraqlısı isə odur ki, dünyanın iqtisadi münasibətlər sistemində aparıcı rola və gücə malik olan nəhəng transmilli korporasiyaların idarəçilik sistemində xarici vəzifəli şəxslərin rüşvətlə ələ alınmasına xidmət edən korrupsiya şöbəsi mövcuddur. Odur ki, TMK bəzən özünü hansısa bir ölkədə iqtisadi fəaliyyətə qoşmaq və ya davam etdirmək imkanı əldə etmək və ya qeyri-qanuni üstünlük əldə etmək üçün gəldiyi ölkənin vəzifəli şəxslərinə rüşvət verməkdən belə çəkinmirlər. Bu mənada, transmilli korrupsiya qlobal iqtisadi və siyasi sabitliyə son dərəcə ciddi təhlükə yaradan hadisədir. O, iqtisadi, maliyyə və investisiya xarakterli layihələrin bağlanma imkanlarını və onların səmərəliliyini azaldır və qlobal bazarlarda əda-lətsiz rəqabətə səbəb olur.

Transmilli korrupsiya ilə yanaşı, beynəlxalq korrupsiyanı xüsusi qeyd etmək lazımdır. Korrupsiyanın bu növünün mövcudluğu müasir dünya qaydasında beynəlxalq təşkilatların rolunun durmadan artması ilə bağlıdır. Yəni, beynəlxalq korrupsiya beynəlxalq subyektin olması ilə xarakterizə olunur. Belə ki, bu təşkilatlar beynəlxalq səviyyədə iqtisadi, maliyyə-kredit, investisiya, səhiyyə, idman və bu kimi digər humanitar sahələr üzrə geniş idarəçiliyə və meydana çıxan problemlərin həllində kifayət qədər səlahiyyətə və gücə malik olmaları nə qədər müsbət hal olsa da, onun neqativ tərəfləri də diqqət-dən kənarda qalmamalıdır. Belə ki, həmin təşkilatların vəzifəli şəxsləri bu imkanlardan sui-istifadə edərək şəxsi və ya qrup maraqlarını təmin etmək məqsədilə korrupsiyaya əl atırlar. Korrupsiyanın bu növü özünün yüksək səviyyəli latentliyi ilə fərqlənir.

Beynəlxalq korrupsiyanın ictimai təhlükəliliyi faktı nəzərə alınmaqla, 2011-ci ildə Azərbaycan Respublikasının qüvvədə olan Cinayət Məcəlləsinin 12-ci maddəsinə bununla bağlı müvafiq əlavə edilmişdir. Həmin əlavəyə əsasən, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənarda beynəlxalq təşkilatların vəzifəli şəxsləri, beynəlxalq parlament assambleyalarının üzvləri, beynəlxalq məhkəmələrin vəzifəli şəxsləri və hakimləri olan Azərbaycan Respublikası vətəndaşlarının iştirakı ilə korrupsiya cinayəti və qulluq mənafeyi əleyhinə olan digər cinayət törətdikləri halda və həmin cinayətə görə xarici dövlətdə məhkum olunmadıqda, bu Məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilirlər [2, s. 30].

Praktikaya beynəlxalq korrupsiyanın, daha çox "*beynəlxalq siyasi korrupsiya*" adı altında tanınan, bir dövlətin başqa bir dövləti pulla ələ alması kimi növü məlumdur. Beynəlxalq kor-

rupsiyaya nümunə olaraq, NATO ölkələrinin Yuqoslaviya hökumətinə prezident Slobadan Miloşeviçin ekstradisiyasının qarşılığında milyonlarla dollarlıq maliyyə dəstəyi vəd etməsini göstərmək olar.

Beynəlxalq hüququn universal mənbəyi olan 1969-cu il Müqavilələr hüququ haqqında Vyana Konvensiyası bu növ korrupsiyanın mümkün hallarından birini nəzərdə tutur. Konvensiyanın 50-ci maddəsinə əsasən, əgər dövlətin beynəlxalq müqavilənin onun üçün məcburiliyinə razılığının ifadəsi danışıqlarda iştirak edən digər dövlət tərəfindən onun nümayəndəsinə birbaşa və ya dolayı yolla qanunsuz ələ alınması nəticəsində ifadə edilibsə, onda birinci dövlətin belə bir müqavilə ilə bağlı razılığın etibarsızlığı üçün əsas kimi belə qanunsuz yolla ələ almaya istinad edə bilər [11]. Qeyd edək ki, dövlət nümayəndəsinin qanunsuz yolla ələ alınması beynəlxalq müqavilələr hüququnda nisbi etibarsızlığın əsasları sırasına aid edilib. Nisbi etibarsızlıq isə müqavilənin, yalnız tərəflərdən birinin onun hüquqauyğunluğunu şübhə altına alması ilə ortaya çıxır. Təəssüf hissi ilə qeyd etmək istərdik ki, beynəlxalq korrupsiya qlobal siyasətdə xüsusi narahatlıq doğuran bir faktor olsa da, indinin özünə kimi onunla mübarizənin təkmil hüquqi mübarizə mexanizmi tam formalaşmamışdır.

Korrupsiya münasibətlərinin *mərkəzləşmə dərəcəsindən* asılı olaraq: mərkəzləşdirilməmiş korrupsiya (hər bir rüşvət verən öz təşəbbüsü ilə hərəkət edir) və mərkəzləşdirilmiş korrupsiya (aşağı səviyyəli vəzifəli şəxslər tərəfindən müntəzəm şəkildə toplanan rüşvət onlar və daha yüksək vəzifəli şəxslər arasında bölünür); korrupsiya əlaqələrinin *müntəzəmlik dərəcəsindən* asılı olaraq: epizodik korrupsiya, sistemli korrupsiya (institusional) və kleptokratik korrupsiya (korrupsiya hakimiyyət münasibətlərinin ayrılmaz tərkib hissəsi kimi); *təzahür formasından* asılı olaraq: rüşvətxorluq – (rüşvət alma və rüşvət vermə, vəzifəli şəxslərin pulla ələ alınması), favoritizm – (müəssisələrin əsassız üstünlüklər əldə etməsi zamanı əlaqələrdən istifadə etmə), nepotizm (qohumbazlıq) – (qohumları əsas vəzifələrə təyin etmək, qohumlara, tanışlara, dostlara və s. hər hansı qanunsuz üstünlüklər vermək), proteksionizm – (bu zaman dövlət xadimləri seçicilərin deyil, mütəşəkkil bürokratik və maliyyə qruplarının maraqları naminə hərəkət edir), lobbiçilik – (müəyyən bir qanunun qəbul edilməsi və ya qəbul edilməməsi məqsədi ilə parlament üzvlərinə rüşvət vermək), qanunsuz varlanma – (vəzifəli şəxsin qanuni gəlirləri ilə sahib olduğu əmlak arasında rasional şəkildə izah edə bilmədiyi uyğunsuzluğu aşkar etmək), kliyentelizm – sədaqət qarşılığında resurs paylanması və s. bu kimi növləri mövcuddur.

Bəzi tədqiqatlarda və praktikada korrupsiyanın şərti olaraq aşağıdakı növlərinə də rast gəlinir: ağ – yəni xidmət üzrə vəzifələrini yerinə yetirməməklə əlaqəli olmayan, lakin göstərilən xidmətə görə minnətdarlıq şəklində təzahür edən korrupsiya davranışı; boz – yəni rəsmi vəzifə öhdəliklərinin pozulması ilə əlaqəli korrupsiya davranışı; qara – yəni vəzifə cinayətləri ilə əlaqəli və ya mütəşəkkil cinayətkar fəaliyyətdə iştirakla müşayiət olunan korrupsiya davranışı; cəmiyyətdəki korrupsiyanın sahələrindən asılı olaraq – biznes korrupsiyası, yəni sahibkarlar tərəfindən şirkət işlərində məmurlara pul ödənişləri, inzibati korrupsiya, yəni məmurlar tərəfindən sahibkarlardan pul və ya əmlak qoparılması, dövlət ələ keçirilməsi, yəni iş adamları tərəfindən şəxsi maraqlar və şirkətlərin maraqları naminə hökumət qərarlarının satın alınması, biznesin ələ keçirilməsi, yəni məmurlar tərəfindən tamah məqsədlər üçün özəl müəssisələr üzərində nəzarətin qurulması, aktiv və passiv rüşvət və s.

Beləliklə, korrupsiyanın anlayışına müxtəlif perspektivlərdən və istiqamətlərdən yanaşma, onun növlərinin də geniş təsnifatını təqdim edir. Yəni korrupsiyanın tərifi hər yerdə mövcudluğu, mürəkkəbliyi və fenomenin çoxşaxəli təbiəti

səbəbindən müxtəlif olduğu kimi, təsnifatı da müxtəlifdir [33. s.775-795]. Tədqiqatçıların gəldiyi ümumi yanaşma ondan ibarətdir ki, ədəbiyyatda korrupsiyanın növlərindən danışılarkən, aydın olur ki, burada əsas diqqət korrupsiyada iştirak edən şəxslərin statusuna və korrupsiya davranışının növünə verilir. Digər bir təsnifat, korrupsiyanın siyasi, sosial, iqtisadi, bürokratik aspektləri xətti ilə təsnif edildiyi hərəkətlərin baş verdiyi perspektivi və bucağı əhatə edir [34, s. 104].

Nəticə

Kriminal qloballaşmanın təzahür formalarından biri olmaqla, korrupsiya iqtisadi, siyasi, sosial, etik və hüquqi müstəvidə cəmiyyət və dövlət üçün ciddi problemlər yaradan təhlükəli fenomendir. İqtisadi müstəvidə korrupsiya cəmiyyətin və dövlətin iqtisadi əsaslarını dağıdır, dövlət büdcəsinin və maliyyə vəsaitlərinin talanmasına və mənimsənilməsinə səbəb olur, azad bazar iqtisadiyyatını və sağlam rəqabətin qarşısını alır, investisiya mühitini pisləşdirir, beynəlxalq əməkdaşlıq imkanlarına maneələr yaradır, nəticədə iqtisadi layihələrin və xidmətlərin dəyərinin süni şəkildə şişirdilməsinə gətirib çıxarır.

Siyasi müstəvidə korrupsiya konkret bir ölkədə siyasi böhranlara stimul verir, dövlət idarəçiliyinin səmərəsizliyinə və fəaliyyət qabiliyyətinin itirilməsinə gətirib çıxarır, vətəndaşların dövlət qurumlarına və idarəetmə aparatına olan inamını sarsıdır, favoritizm, nepotizm, proteksionizm, kliyentelizm və bu kimi iyrənc praktika cəmiyyətdə adi həyat hadisəsinə çevrilir.

Korrupsiya cəmiyyətdə sosial dəyərlərə qəsd edən, onu məhvə aparan, insanların sosial-iqtisadi problemlərinin həllinə dağıdıcı təsir göstərən, iqtisadi və sosial bərabərsizliyə zəmin yaradan, son nəticədə cəmiyyətin deqradasiyasına səbəb olan təhlükəli sosial-hüquqi hadisədir.

Etik baxımdan korrupsiyanın cəmiyyətə vurduğu zərər daha ciddiyə alınmalıdır. Baxmayaraq ki, bəzən korrupsiyanın etik dəyərlərə qəsd etmə imkanı arxa plana keçirilir, cəmiyyətdə güclünün, səlahiyyət sahibinin haqlı olduğu, toxunulmaz olduğu düşüncəsi adi normaya çevrilir və beləliklə də sosial parçalanma dərinləşir. Korrupsiya cəmiyyətin mənəvi təməllərinə, ədalət və bərabərlik prinsiplərinə, insan ləyaqətinə qəsd edir, şəxsi maraqları ümumi rifahdan üstün tutmaqla universal əxlaqi dəyərləri dağıdır.

Korrupsiya qanunla qorunan ictimai münasibətlərə qəsd edən hüquq pozuntusudur və bu ad altında ifadə olunan əməllərin beynəlxalq və milli qanunvericilikdə kriminallaşdırılması onunla mübarizənin səmərəliliyi baxımından olduqca aktualdır. Aparılan araşdırma və təhlildən belə bir qənaətə gəlmək mümkündür ki, istər hüquqi praktikada, istərsə də nəzəri yanaşmalarda indinin özünə kimi korrupsiyanın universal anlayışına dair konsensusa nail olunmamışdır. Hətta bu fərqlilik onun növlərinə də aid edilir. Yəni, korrupsiyanın anlayışına müxtəlif perspektivlərdən və istiqamətlərdən yanaşma, onun növlərinin də müxtəlif prizmalardan təsnifatına səbəb olur. Hesab edirik ki, bəzən *soft law* – yəni yumşaq hüquq mənasında təqdim olunan, əslində isə əsas məzmununa görə korrupsiya cinayəti xarakteri daşıyan aşağıdakı əməllər: vəzifəli şəxs tərəfindən qanunla tələb olunmayan məlumatların əsasız olaraq tələb edilməsi, dövlət xidmətlərinin göstərilməsində fiziki şəxslərə, fərdi sahibkarlara və hüquqi şəxslərə əsassız üstünlük verilməsi, dövlət və bələdiyyə qulluğuna qəbul zamanı və sonrakı karyera yüksəlişində icazəsiz üstünlüklərin verilməsi, korrupsiyada vasitəçilik, qanunsuz varlanma ictimai təhlükəli davranışın kriminallaşdırılması prinsipi nöqteyi-nəzərindən konkret cinayət tərkibləri kimi qanunvericilikdə öz təsdiqini tapmalıdır.

Korrupsiya beynəlxalq xarakterli cinayətin (transmilli cinayətin) təhlükəli növlərindən biri olduğu üçün, onunla səmərəli mübarizə yalnız və yalnız beynəlxalq əməkdaşlıq müstəvisində mümkündür.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı, Hüquq ədəbiyyatı nəşriyyatı. 2012. 776 s.

2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, Hüquq Yayın Evi. 2025. 848 s.

3. Birləşmiş Millətlər Təşkilatının korrupsiya əleyhinə Konvensiyası: https://e-qanun.az /frame-work/10784

4. Birləşmiş Millətlər Təşkilatının Transmilli mütəşəkkil cinayətkarlığa qarşı 2000-ci il Konvensi-yası: https://e-qanun. az/framework/2198

5. Ədliyyə orqanlarında qulluq keçmə haqqında Azərbaycan Respublikasının Qanunu: https://e-qanun.az/framework/11763

6. Hüseynov R. Korrupsiya cinayətlərinin ictimai təhlükəlilik dərəcəsi və cəmiyyətə təsiri // Elmi iş Beynəlxalq Elmi Jurnal. Cild: 19 Sayı: 5, 2025, s. 195-199

7. Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu: https://e-qanun. az/framework/5809

8. Qədirov A. X. Korrupsiya cinayətlərinin istintaq metodikasının əsasları. Dərs vəsaiti. Bakı, Elm və Təhsil, 2014. 172 s.

9. Məmmədov R.F., Qənbərov H.D., Məmmədov X.R. Korrupsiya ilə mübarizə: beynəlxalq hüquq və Azərbaycan Respublikasının milli qanunvericilik təcrübəsi. Bakı, Azərnəşr, 2013. 216 s.

10. Məmmədov R, Məmmədov R, Hacıyev C, Məmmədova J, Məmmədov X. Müasir dövrdə Azərbaycan Respublikasında korrupsiyanın səviyyəsinin öyrənilməsinə dair ixtisaslaşdırılmış tədqiqatların aparılması və onların hüquqi təminatı. Bakı, Səda nəşriyyatı. 2020. 92 s.

11. Müqavilələr hüququ haqqında Vyana Konvensiyası https://e-qanun.az/framework/36996

12. Salehzadə Ə. Korrupsiya ilə mübarizədə beynəlxalq hüquqi bazanın formalaşması // Dirçəliş, №180, 2013, s. 124-134: https://www.elibrary.az/docs/jurnal/jrn2014_95.pdf

13. Андрианов В. Д. Коррупция как глобальная проблема: история и современность. Моно-графия. М., Издательство Экономика, 2011, 301 с.

14. Белозерцев С.М. Некоторые аспекты определения понятия коррупции //Вестник Восточ-но-Сибирского института МВД России. № 1(52), 2010, с. 3-7: https://cyberleninka. ru / article/n/nekotorye-aspekty-opredeleniya-ponyatiya-korruptsii/viewer

15. Бурлаков В.Н. Криминализация незаконного обогащения: теоретические модель состава преступления // Криминологический журнал Байкальского государственного университе-та экономики и права. Т.9, № 1. 2015, с. 12-19

16. Гаухман Л.Д. Коррупция и коррупционное преступление // Законность. N 6. 2000, с.2-6

17. Долгова А.И. Определение коррупции и законодательство о борьбе с ней // Коррупция и борьба с ней. М, 2000, с.13-25

18. Кузьмин А.В., Козловских Е.А. Проблемы преодоления коррупции в РФ //Актуальные проблемы антикоррупционной политики на региональном уровне: Материалы региональ-ной практической конференции. СПб., 2001, 180 с.

19. Кузьмин И. А. Наказание как объект научных исследований : проблемы и перспективы // Вестник РУДН. Серия : Юридические науки. Т. 27. № 1. 2023,с. 202-218.

20. Кривякин К.С. Экономические основы противодействия коррупционной деятельности. Воронеж, Воронежский государственный технический университет. 2017. 80 с.

21. Максимов В. К. Понятие коррупции в международном и российском праве //Право и без-опасность, № 2-3 (3-4), 2002: https://dpr.ru/pravo/pravo_3_17.htm

22. Максимов С.В. Коррупция. Закон. Ответственность. М., Издательство ЮрИнфор. 2000, 143 с.

23. Противодействие коррупции : учебник / под редакцией А. В. Юрковского. Иркутск: Ир-кутский юридический институт (филиал) Университета прокуратуры Российской Феде-рации, 2024. 360 с.

24. Роуз-Аккерман С. Коррупция и государство. Причины, следствия, реформы. Пер с англ. О.А.Алякринского. М., Логос, 2003, 356 с.

25. Сажина С.С., Еленкин В.Л. Политические, экономические, правовые аспекты коррупции // Аллея науки. Т. 3. № 4 (20). 2018, с. 814-815

26. Сарычев А.В., Архипцев И.Н. Социальные и политические аспекты коррупции // Проб-лемы правоохранительной деятельности. № 3. 2022, с. 33-36.

27. Фиалковская И.Д. Противодействие коррупции как цель контрольно-надзорной деятель-ности в государственном управлении: зарубежный опыт // Материалы I Всероссийской научно-практической конференции «Актуальные вопросы контроля и надзора в социаль-но значимых сферах деятельности общества и государства». Н. Новгород, 2015, с.477-484

28. Фиалковская И.Д. Коррупция: понятие, признаки, виды //Вестник Нижегородского уни-верситета им. Н.И. Лобачевского, № 1, 2018, с.137-142

29. Хабриева Т. Я. Коррупция и право: доктринальные подходы к постановке проблемы // Журнал российского права. № 6. 2012, с. 5-17: https://cyberleninka.ru/article/n/korruptsiya-i-pravo-doktrinalnye-podhody-k-postanovke-problemy

30. Щербинина А.В. Понятие и сущность коррупции в современном мире // Алтайский юри-дический вестник, № 4 (52), 2025, с.49-57: https://cyberleninka.ru/article/n/ponyatie-i-susch-nost-korruptsii-v-sovremennom-mire/viewer

31. Amundsen İ. Political Corruption: An İntroduction to the İssues. Norway. Michelsen Institute 1999. 39 p.

32. Roman A. V. Miller H. T. Building social cohesion: Family, friends, and corruption. Adminis-tration & Society, 46 (7), 2013, p. 775-795: DOI:10.1177/0095399712473987

33. Sung H.E. Democracy and Political Corruption: A Cross-National Comparison // Crime Law and Social Change. Volume. 41, Issuse 2. 2004, p.179-193

34. Suleiman N, Tafawa A, Corruption Typology: A Review of Literature // Chinese Business Re-view, Febrary. Volume. 16, No. 2, 2017, p.102-108

35. Tanzi, V. Davoodi H. Corruption, Public Investment, and Growth / V. Tanzi, H. Davoodi // IMF Working Paper.1997. p, 1-23: https://www.imf.org/external/pubs/ft/wp/wp97139.pdf

Мурсалов Орудж Гиняз оглу,
докторант кафедры международного публичного права
Бакинского государственного университета

КОРРУПЦИЯ: ПОНЯТИЕ, СУЩНОСТЬ И ВИДЫ

РЕЗЮМЕ

Коррупция – одно из самых серьезных и опасных проявлений современной эпохи. Ее су-ществование представляет реальную угрозу не только политической и экономической безопас-ности государства и общества, но и моральным, этическим и духовным ценностям людей, нор-мальной деловой деятельности, межгосударственному сотрудничеству в экономической, торго-вой и других сферах. По этому, в статье рассматривается и анализируется понятия и сущность коррупции не только с правовой и криминологической точки зрения, но и как синтетическая понятия, имеющая социальное, общественное, политическое и экономическое значение.

Учитывая трансформационные процессы, происходящие в обществе и государстве в последние десятилетия, в статье предлагается криминализировать следующие деяния, которые иногда представляются в смысле *soft law* «мягкого права», но на самом деле по своему основному содержанию носят характер коррупционных преступлений: необоснованный запрос информации, не требуемой законом должностным лицом, предоставление необоснованных преимуществ физическим лицам, индивидуальным предпринимателям и юридическим лицам при оказании госу-дарственных услуг, предоставление несанкционированных преимуществ при поступлении на государственную и муниципальную службу и последующем продвижении по службе, посредничество в коррупции и незаконное обогащение.

Mursalov Oruj Ginyaz,
Doctoral student at the Department of International Public Law,
Baku State University

CORRUPTION: CONCEPT, ESSENCE AND TYPES

SUMMARY

Corruption is one of the most serious and dangerous manifestations of the modern era. Its existence poses a real threat not only to the political and economic security of the state and society, but also to the moral, ethical, and spiritual values of people, normal business activity, and interstate coo-peration in economic, trade, and other spheres. Therefore, the article examines and analyzes the concept and essence of corruption not only from a legal and criminological point of view, but also as a synthetic concept that has social, public, political and economic significance.

Taking into account the transformation processes taking place in society and the state in recent decades, the article proposes to criminalize the following acts, which are sometimes presented in the sense of soft law, but in fact, in their main content, have the nature of corruption crimes: an unjustified request for information not required by law by an official, the provision of unjustified advantages to individuals, sole proprietors and legal entities in the provision of public services, the provision of unauthorized advantages when entering the state and municipal service and subsequent promotion, mediation in corruption and illegal enrichment.

Redaksiyaya daxilolma tarixi: 05.09.2026
Təkrar işlənməyə göndərilmə tarixi: 10.09.2026
Çapa qəbul olunma tarixi: 20.09.2026